


"Türk dünyasında gənc nəslin yaşadıqları ölkələrdə məktəblərdə öz ana dilində təhsil almaq imkanı olmalıdır". Bunu Azərbaycan Prezidenti İlham Əliyev ötən il noyabrın 11-də Səmərqənddə keçirilən Türk Dövlətləri Təşkilatının IX Zirvə görüşündəki çıxışında bəyan edib.

Dövlət başçısının bu fikri yaddaşımızı bir qədər təzələmək üçün sanki bir təkan oldu. Azərbaycanlıların daha kompakt yaşadığı Güney Azərbaycanını göz önünə gətirdik. Quzeydə hələ də yetərincə tanınmayan Güney barədə düşüncələrimizin fonunda onun ədəbiyyatını, nəsrini, poeziyasını, yazar soydaşlarımızın mücadiləsini ifadə edən nümunələri xatırladıq.

Qəzetimizdə "Güneydən səslər..." rubrikası altında Güney ədəbiyyatının, folklorunun, mədəniyyətinin, incəsənətinin ən gözəl nümunələri ilə oxucularımızı da tanış edirik.

## MƏLİHƏ ƏZİZPUR



1979-cu ildə Əhər şəhərində doğulub. Sonralar ailəsi Təbrizdə məskunlaşdığından burada boya-başa çatıb. İbtidai və orta məktəbi də elə Təbrizdə bitirib. 2002-ci ildə Təbriz Universitetinin Psixologiya fakültəsindən məzun olub. Daha çox oxumaq və yeni-yeni sahələrdə özünü sınamaq, xalqına daha çox faydalı olmaq amacıyla qəzetçilik - jurnalistika məktəbində də dərs almağa başlayıb. Bundan sonra, Təbrizdə ayrı-ayrı qəzet və dərgilərlə əməkdaşlıq edib, bir sıra maraqlı mövzularda yazdığı dərin məzmunlu məqalələrlə oxucuların diqqətini çəkib və rəğbətini qazanıb.

"Yağmur", "Dəmir sevgi", "Ağ gecə", "14 qələm bəzənmiş Ay", "Su pıçıltısı", "Yasaq duyğular", "Göy gözlü Tanrı" və "Mənə bir küçə bağışla" kimi Təbriz və Bakıda çap olmuş türkcə şeir kitablarının müəllifidir.

*Əlbəttə ki, zaman, tərsə geyib başmağını.*
*Yoxsa, duyardınız*
*Qurdumuzun səsi necə uzanır*
*Altaylardan Balkanlara...*
*Görərdiniz, qartallarımız necə aslan avlayır!*
*Göllərimiz, necə nəhəng yaşadır bağrında...*
*Görərdiniz,*
*Atlarımız, hələ də dənizdən çıxır*
*Bizim, ulu Tüküstan çölündə - at belində*
*Qızıl səhifələrimiz artırmağımız üçün*
*Qoca tarix kitabına...*
*Başa düşürük*
*Bic fəlsəfəniz, ölümdən süd əmir...*
*Bu bizik!*
*TÜRK oğlu TÜRK!*
*Oğuz xaqan, Alp ər tunqa, Tomris,*
*Atila, Babək, Atatürk!..*

## ALIŞIQ MƏHƏMMƏD İBADİ-QARAXANLI



1979-cu ildə Təbrizdə dünyaya göz açıb. Orta məktəbi bitirdikdən sonra əsgəri xidmətdə olub. Kiçik yaşlarından Aşıq Əli İbadinin tövsiyəsi ilə ana dilini öyrənməyə, doğma türkcədə şeirlər yazmağa başlayıb. Alışığın ilk şeiri 1994-cü ildə çap olunub. Şair deyir ki, mən o zamanlar dilimizi, ədəbiyyatımızı öyrənərkən ədəbiyyatımızın parlaq ulduzları Əli Daşqın, diktor Yəhya Şeyda kimi ustadlarla tanış oldum və bundan son dərəcə təsirləndim. Alışığın şeirləri bir çox mətbu orqanlarında çap olunmuş, oxucuların dərin rəğbətini qazanmışdır. Bu gün Alışığın heca vəznində, oxunaqlı, ahəngdar səslənən şeirləri el məclislərində, toy-düyündə aşıqların dilindən düşmür, xalqın məhəbbətini qazanır.

### Oğlum

*Sürüdən ayrılıb azan qoyunu,*
*Qurdlar parçalayıb, bil yeyər, oğlum.*
*Taleyinin quşun əldən uçurdan,*
*Döyər təpəsinə, dərd yeyər, oğlum.*

* * *

*Oğurluq mal dağda olsa talanar,*
*Pak insan pir olar, duz tək yalanar,*
*Namərd boyun bəslər, arsız dolanar,*
*Dərdin xınabasın mərd yeyər, oğlum.*

* * *

*Alışıq tək alış, sönsən qəmin yol!*
*Bilmədiyin işə qoymaginən qol!*
*Sən öz kölgəndən də ehtiyatlı ol!*
*Ağacı içindən qurd yeyər oğlum.*

Esmira Fuad